BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Husilərin Qırmızı dənizdəki hücumlarının təsir və nəticələri: geosiyasi, iqtisadi və təhlükəsizlik

Lalə Xəlilzadə

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

APREL 2024

## Husilərin Qırmızı dənizdəki hücumlarının təsir və nəticələri: geosiyasi, iqtisadi və təhlükəsizlik

### Giriş

Ötən il oktyabrın 31-də husi birləşmələri İsrailə qarşı pilotsuz uçuş aparatları və ballistik raketlərlə hücuma keçdilər. Husilər bu hücumları həmin ayın 7-də başlayan HƏMAS-İsrail müharibəsində (başqa adla "Əqsa Tufanı" Əməliyyatı və ya Fələstin-İsrail müharibəsi) fələstinliləri dəstəkləmək və İsrail hücumlarına cavab məqsədilə həyata keçirdiklərini bəyan etdilər. **"İsrail təcavüzü dayanana qədər"** bu hücumları davam etdirəcəklərini bəyan edən husilər Afrika hissəsində Eritreya və Cibuti, Ərəb yarımadası tərəfdən isə Yəməni ayıran 20 mil genişlikdəki Bab Əl-Məndəb boğazından mal daşıyan xarici gəmilərə qarşı dron və raketlərdən istifadə etməyə başladılar.[1]

Təhdidlərin miqyasını genişləndirən husilər ötən il dekabrın 9-da yaydıqları bəyanatda Qəzza bölgəsinə lazımi qida və dərmanların çatdırılmayacağı halda hansı ölkəyə məxsusluğundan asılı olmayaraq bütün gəmilərin hədəf alınacağını bildirərək, beynəlxalq gəmiçilik şirkətlərinə İsrail limanları ilə iş görməmələri barədə xəbərdarlıq etdilər. Beləliklə, bu hücumlar dünya neftinin böyük hissəsinin daşındığı dəniz zolaqlarını təhdidlə üz-üzə qoydu.

### Yəmən husiləri və onların Qırmızı dənizdəki rolu

"Ənsar Allah" (Allahın tərəfdarları) kimi tanınan husi birləşmələri 1994-cü ildə yaranıb və adını hərəkatın banisi Hüseyn Əl-Husidən alıb. Qruplaşmanın hazırki lideri onun qardaşı Əbdül Malik Əl-Husidir. Yəməndə şiə müsəlman azlığı olan Zeydiləri dəstəkləyən bu silahlı və dini qrup özünün İsrail, ABŞ və Qərbə qarşı İranın rəhbərlik etdiyi "müqavimət oxu"nun bir hissəsi olduğunu bəyan edir. Emblemlərində əks olunan **"Allah böyükdür, Amerikaya ölüm, İsrailə ölüm, yəhudilərə lənət, İslama qələbə"** şüarı onların fəaliyyətlərinin qayəsini göstərir.

2011-ci ildə Ərəb baharı zamanı ölkədə baş qaldıran xalq üsyanı Yəmən Prezidenti Əli Abdullah Salehi hakimiyyəti ölkənin vitse-prezidenti Əbül Rəbbuh Mənsur Əl-Hadiyə təhvil verməyə məcbur etmişdir. Lakin Husilərin Ə.A.Salehi ilə gözlənilməz ittifaqı nəticəsində bu birləşmə öncə paytaxt Sənanı, sonra qərbi Yəmənin böyük hissəsini ələ keçirmişdir. Nəticədə M. Hadi xaricə qaçmağa məcbur olmuşdur. Yəmənin İran idarəçiliyinə çevriləcəyindən narahat olan Səudiyyə Ərəbistanı müharibəyə müdaxilə edən ərəb ölkələrindən ibarət koalisiya yaratmışdır. Lakin İran dəstəkli husilərin bu illər ərzində davam edən hava zərbələri və quru döyüşləri onları ələ keçirdikləri ərazilərin çoxunda möhkəmləndirmişdir.

---

[1] تحالف عسكري ضد الحوثيين بالبحر الأحمر وإسرائيل تدفع بساعر 6.. إلى أين تمضي الأزمة؟ | أخبار | الجزيرة نت (aljazeera.net)

Hazırda husilər Qırmızı dəniz sahili daxil olmaqla, paytaxt Səna və Yəmənin şimal-qərbinə nəzarət edirlər. Onlar vergi toplayan və pul çap edən faktiki hökuməti idarə edirlər. Yəmənin beynəlxalq səviyyədə tanınan hökuməti isə Yəmənin cənubundakı Ədən limanında yerləşir.[2]

Coğrafi mövqeyinə görə Yəmən dünya ticarəti üçün ən mühüm gəmi yollarından birinə - Bab Əl-Məndəb boğazına nəzarət edir. Ölkə Asiyanı Afrikadan ayıran və Hind okeanından Atlantik okeanına çıxışa imkan verən boğazın sahillərindən birini tutur. Bu dar dəhliz vasitəsilə gəmilər Ərəbistan dənizindən Qırmızı dənizə daxil olur, sonra isə Süveyş kanalı ilə Aralıq dənizinə çıxırlar. Bu, Asiya ölkələri ilə Avropa arasında ən qısa və ən ucuz marşrut hesab edilir. Bütün dəniz ticarətinin demək olar ki, 15%-i Qırmızı dənizdən keçir. (şəkil 1.)




**Şəkil 1.**

**Hücumların miqyası**

9 yanvar 2024-cü il tarixində ABŞ-nin Mərkəzi Komandanlığı husilərin Qırmızı dənizdəki ticarət gəmilərinə hücumu ilə bağlı bəyanat yaydı. Bəyanatda Yəmənin husilərin nəzarəti altında olan ərazilərindən İran istehsalı olan pilotsuz uçuş aparatları, gəmi əleyhinə qanadlı və ballistik raketlərlə kompleks hücuma keçdikləri bildirildi. Bəyanata görə, bu hücum husilərin noyabrın 19-dan etibarən həyata keçirdikləri 26-cı hücum idi. [3]

Hücumların ən ağır nəticələrindən biri fevralın 18-də baş verdi. Belə ki, husilərin hücumu nəticəsində Qırmızı dənizdə 41 min ton gübrə daşıyan ingilis gəmisi

---

2 https://www.bbc.com/news/world-middle-east-67614911.amp
3 https://www.centcom.mil/MEDIA/STATEMENTS/Statements-View/Article/3639970/us-centcom-statement-on-26th-houthi-attack-on-commercial-shipping-lanes-in-the/

**“Rubymar”** hədəf alındı.[4] Gəmi heyəti xilas edilsə də, yüksək miqdarda ammonyak və neft daşıyan gəminin ciddi ekoloji fəlakətə səbəb olması barədə xəbərdarlıq edildi. Yəmənin Ətraf Mühitin Mühafizəsi üzrə Ümumi Qurumunun sədri Faysal Talabi verdiyi açıqlamada batan gəmidə təxminən 200 ton neft və 80 ton dizel törəmələrinin olduğunu bildirərək, bu təhlükəli maddələrin Qırmızı dənizin biomüxtəlifliyinə ciddi fəsadlarla nəticələnəcəyini vurğuladı.[5]

Hücumun Fələstin xalqına dəstək məqsədilə edildiyini iddia edən husi ordusunun sözcüsü, briqada generalı Yəhya Sari Fələstin xalqına qarşı hücumlar dayandırılana və blokada aradan qaldırılana qədər İsrail gəmilərinə və işğal altındakı Fələstin limanlarına gedən gəmilərə hücumların davam edəcəyini bildirdi. [6]

Öz növbəsində Yəmən hökuməti Qırmızı dənizdə batmaq təhlükəsi ilə üzləşən gəminin batmasının qarşısını almaq üçün dünyadan kömək istədi. Yəmənin xarici işlər naziri Əhməd Avad bin Mübarək husi qruplaşmasının dəniz hücumlarını **“Qəzzaya dəstək olaraq”** həyata keçirdikləri barədə bəyanatlarını təkzib etdi. Nazir açıqlamasında: *“Husi yaraqlılarının neft obyektlərini hədəf alaraq, Taiz şəhərini mühasirəyə almalarının nə Fələstin xalqı, nə də onların ədalət işinə dəstək verməklə heç bir əlaqəsi yoxdur. Bu hücumlar Yəmən xalqının əzablarını artırır”* – deyə o, qeyd etdi.[7]

Yəmən xarici işlər nazirinin müraciətinə heç bir dəstək cavabı gəlmədi və **nəticədə İngiltərəyə məxsus yük daşıyıcısı “Rubymar” iki həftədən sonra batdı. Bu, Husilərin hücumu nəticəsində batan ilk gəmi oldu. (Şəkil 2.)**



**Şəkil 2.**

**Mart ayında Husilər Qırmızı dənizdə gəmiçiliyə qarşı ilk ölümcül hücumu həyata keçirdilər.** Husilərin Ədən körfəzində **“True Confidence”** ticarət gəmisinə hücumu nəticəsində üç dənizçi həlak oldu. Gəmi Yəmənin Ədən limanının təxminən əlli dəniz mili cənub-qərbində vurulmuş və alovlanmışdır. Gəmidə on beş Filippin, dörd

4 الحوثيون يعلنون استهداف السفينة روبيمار في خليج عدن بصواريخ بحرية (alarabiya.net)
5 https://arabic.euronews.com/2024/03/04/fears-of-ecological-catastrophe-red-sea-after-uk-ship-sunk-by-houthis
6 الحوثيون يستهدفون سفينتين أميركيتين في خليج عدن.. غارات غربية على الحديدة (alarabiya.net)
7 بن مبارك لـ«الشرق الأوسط»: الحوثيون يستخدمون أمن البحر الأحمر لأغراض دعائية (aawsat.com)

Vyetnam, iki Şri Lanka, bir Hindistan və bir Nepal vətəndaşı və üç silahlı mühafizəçi olmaqla 20 ekipaj üzvü olub. “True Confidence” gəmisi Liberiyada qeydiyyatdan keçmiş “True Confidence Shipping” şirkətinə məxsusdur və Yunanıstanda yerləşən “Third January Maritime” tərəfindən idarə olunur. Yəmən husiləri bəyanat yayaraq hücuma görə məsuliyyəti öz üzərlərinə götürüblər.[8]

Mart ayında Əbdülməlik Əl-Husi Qırmızı dəniz və Ədən körfəzində əlli dörd gəmiyə edilən hücumun məsuliyyətini üzərinə götürərək, qrupun noyabr ayından etibarən 384 raket və PUA-dan istifadə etdiyini bildirdi. O, Qırmızı dəniz, Bab əl-Məndəb, Ədən körfəzi və Oman dənizində gəmilərə hücumların artmasına işarə edərək, “düşmənləri gözləmədikləri sürprizlər” ilə hədələdi. Əl-Husi Avropaya ABŞ və Böyük Britaniyanın hücumlarında iştirak etməmək barədə xəbərdarlıq edərək, Almaniyanın müttəfiqlərinə qarşı səhvən həyata keçirdiyi hücumu ələ saldı.

**Beynəlxalq reaksiyalar**

Husilərin ötən ilin oktyabr ayında başlatdıqları və beş aydır davam edən Qırmızı dəniz hücumları sürətlə genişlənərək regionda qızğın qarşıdurmaya çevrildi. Hücumlar təkcə ABŞ və İsrail deyil, eyni zamanda qlobal ticarət və gəmiçilik təhlükəsizliyinə ciddi təhdid yaratdı. Bu baxımdan ABŞ 18 dekabr 2023-cü il tarixində **“Prosperity Guardian”** əməliyyatı adı altında beynəlxalq dəniz qüvvələri koalisiyasını qurdu. Yanvarın 22-də İngiltərə, Kanada, Hollandiya və Bəhreynin dəstəyi ilə genişlənən koalisiya husilərin Yəməndəki bəzi hərbi məntəqələrinə qarşı hava əməliyyatları həyata keçirdi.[9] Husilərin Qırmızı dənizdəki hücumları ilə yanaşı, ABŞ və İngiltərənin başçılıq etdiyi koalisiya hücumları regional və qlobal güc balansına birbaşa təsir etdi. Bu yeni geosiyasi şəraitdə ölkələr fərqli mövqelər nümayiş etdirdilər.

**ABŞ**. Yanvar ayının 17-də ABŞ administrasiyası husiləri yenidən terror qruplaşması siyahısına daxil etdi. Belə ki, İmmiqrasiya və Vətəndaşlıq Qanunu və Xarici Terror Təşkilatları haqqında 13224 saylı Prezidentin Fərmanı çərçivəsində husilər yenidən **“xüsusi məxfi qlobal terror təşkilatı”** elan edildilər.[10] Bu, hərəkatın ABŞ-da ola biləcək hər hansı mal və mülkiyyətinin dondurulması və maliyyə mənbələrinin kəsilməsi demək idi. Rəsmi Vaşinqton verilən bu qərarın Qəzzaya dəstək, husilərin Qırmızı dənizdə davam edən hücum və təhdidlərinə cavab, eyni zamanda onların terror əməliyyatlarının maliyyələşdirilməsinin məhdudlaşdırılması məqsədi daşıdığını bildirdi. Qeyd edək ki, bir il əvvəl ötən ilin eyni ayında ABŞ Dövlət Katibi Entoni Blinken ölkəsinin Yəmənə humanitar yardım və həyati əhəmiyyət daşıyan kommersiya mallarının idxalının asanlaşdırılmasında mühüm rol oynayan şirkətlər və tərəfdaşlarla ciddi əlaqələr yaradacağına söz vermişdi.

---

8 بلدنا اليوم | صواريخ باليستية ومسيرات تُشعل البحر الأحمر.. الحوثي تشن أقوى هجوما على بريطانيا وأمريكا (nabd.com)
9 https://www.reuters.com/world/us-red-sea-taskforce-gets-limited-backing-some-allies-2023-12-20/
10 https://www.state.gov/executive-order-13224/

Husi birləşmələri ABŞ-nin keçmiş Prezidenti Donald Tarmpın idarəçiliyi zamanında terror qruplaşmaları siyahısına daxil edilmişdilər. Lakin 2021-ci ilin fevralında ölkə Prezidenti Cozef Baydenin müvafiq göstərişi ilə dövlət katibi Entoni Blinken husilərin həm xarici terror təşkilatları, həm də xüsusi olaraq təyin olunmuş qlobal terrorçular siyahısından çıxarıldığını elan etmişdir.

**Almaniya.** Fevral ayının sonunda Almaniya **ilk dəfə** Qırmızı dənizdə husilərin hücumlarına qarşı mübarizəyə qoşuldu. Bununla Almaniya Avropa İttifaqında Fransadan sonra bu əməliyyata qoşulan **ikinci ölkə** oldu.[11]

**İtaliya.** Martın 3-də Fransa və Almaniyadan sonra İtaliya husilərin dəniz hücumlarına qarşı müqavimət xəttinə daxil olan Avropa İttifaqının **üçüncü ölkə**si oldu. İtaliya Müdafiə Nazirliyinin yaydığı bəyanatda dəniz qüvvələrinə aid esminesin husilərin Qırmızı dənizə göndərdiyi silahlı pilotsuz uçuş aparatını (PUA) zərərsizləşdirdiyi bildirildi.[12]

**Çin**. ABŞ Çindən Husilərin Qırmızı dənizdə ticarət gəmilərinə hücumu dayandırmaq barədə Tehrana təzyiq göstərməsini istəsə də, **gözlənilən nəticəni ala bilmədi**. Belə ki, ABŞ rəsmiləri hücumların başlamasından etibarən bir neçə ay Çinin məsul şəxsləri ilə bu məsələni gündəmə gətirməyə çalışsalar da, Çindən gözlənilən cavabı ala bilmədilər. Baxmayaraq ki, Çinin Avropaya ixracının 60%-i Qırmızı dənizdən keçir, lakin BMT Təhlükəsizlik Şurasının husilərin Qırmızı dənizdə hücumlarını pisləyən və dərhal dayandırılmasını tələb edən qətnaməsinə Çin **bitərəf** mövqe nümayiş etdirmişdir.

**Yaponiya**. Yaponiyanın ən böyük gəmiçilik şirkəti “Nippon Yusen” və digər iki nəhəng şirkəti “Mitsui OSK Lines” və “Kawasaki Kisen” regionda gərginliyin artması səbəbindən gəmilərinin Qırmızı dənizdəki fəaliyyətini dayandırdığını açıqladılar. Qərarın ekipajın təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıdığı ifadə edildi.[13]

**Səudiyyə Ərəbistanı.** Sözügedən proseslərdə regionun digər önəmli aktoru Səudiyyə Ərəbistanı (SƏ) **balans siyasəti** yürütdü. Baxmayaraq ki, 2015-ci ildə SƏ-nin liderliyi ilə husilərə qarşı başladılan “Qətiyyət Fırtınası” əməliyyatı ABŞ tərəfindən dəstəklənmişdi, lakin Ər-Riyad rəhbərliyi ABŞ və Böyük Britaniyanın Yəmənə hücumlarına ehtiyatlı yanaşdı. **SƏ-nin yürütdüyü balans siyasətinin iki əsas səbəbini qeyd etmək olar:**

1. HƏMAS-İsrail müharibəsi SƏ-nin ABŞ ilə münasibətləri gücləndirməyə çalışdığı, eyni zamanda İran və Husilərlə diplomatik danışıqlara başladığı dövrə təsadüf etdi. Belə ki, 2022-ci ilin aprelindən etibarən BMT-nin rəhbərliyi altında husilərlə danışıqlar aparan Səudiyyə Ərəbistanı, eyni zamanda Çinin təşəbbüsü

---

11 ألمانيا تشارك للمرة الأولى في التصدي لهجمات الحوثيين البحرية (aawsat.com)

12 إيطاليا ثالث دولة أوروبية على خط التصدي لهجمات الحوثيين (aawsat.com)

13 https://www.khabaragency.net/news204215.html

və ev sahibliyi ilə İranla diplomatik münasibətləri normallaşdırmaq yolunda addımlar atıb. **SƏ ABŞ ilə təhlükəsizlik əlaqələrini gücləndirərkən, husilər və İranla apardığı diplomatik prosesləri məhv etmək istəmir.** Bu baxımdan SƏ ABŞ və Böyük Britaniyanın husilərə qarşı hücumlarına birbaşa dəstəkdən uzaq duraraq, normallaşma və diplomatik danışıqlar proseslərini riskə atmayaraq ehtiyatlı balans siyasətinə üstünlük verir.

2. "2030 Vizyonu" çərçivəsində iqtisadi inkişafa hədəflənən Krallıq üçün cənub sərhədindəki münaqişə iqlimi bu transformasiya üçün təhlükədir. Bu baxımdan rəsmi Ər-Riyad husilərlə ABŞ və İngiltərə arasındakı münaqişə və böhrandan uzaq durmağa çalışır və gərginliyi sakitləşdirmək diskursu sərgiləyir. Eyni zamanda Ər-Riyad və Husilər arasında son müsbət diplomatik əlaqələr Səudiyyənin "2030 Vizyonu" məqsədlərinə, turizm təşəbbüslərinə və FİFA Kuboku kimi böyük tədbirlərə ev sahibliyi etməyə hazırlaşdığı bir vaxtda onun regional sabitlik axtarışı istiqamətində səylərini göstərir.

Digər tərəfdən, Səudiyyə Ərəbistanının ABŞ və Böyük Britaniya ilə bərabər husilərə qarşı koalisiyada fəal iştirak etməməsi təhlükəsizlik baxımından müəyyən risklər yaradır.

Qeyd edək ki, husilərin Qırmızı dənizdə istifadə etdiyi raketlər Yəmən müharibəsi zamanı Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) qarşı istifadə edilən həmin raketlərdir. Bu hücumlar nəticəsində Ciddə şəhərində SƏ-nin milli neft şirkəti **"Saudi Aramco"**ya məxsus neft obyektlərinə ciddi ziyan dəymişdir.

2022-ci ilin fevral ayında başlayan bu hücumlar Rusiya-Ukrayna müharibəsinin başladığı, həmçinin Avropanın Rusiya neftindən imtina etdiyi və alternativ mənbə tapmağa çalışdığı dövrlə eyni vaxtda baş vermişdir. Bununla husilərin məqsədi Qərbin alternativ mənbə hesab etdiyi SƏ neftini sıradan çıxarmaq idi.

**Bəhreyn**. Bəhreyn ABŞ və Böyük Britaniyanın rəhbərlik etdiyi **hücumlara birbaşa dəstək verməklə Körfəzdəki digər aktorlardan fərqləndi.** Bəhreynin bu siyasətinə üç amilin təsir etidyini söyləmək olar:

1. İlk amil Bəhreynin ABŞ ilə münasibətləri ilə bağlıdır. Beşinci Donanmaya ev sahibliyi edən Manama son aylarda ABŞ ilə çoxtərəfli müdafiə sazişi imzalayıb. HƏMAS-İsrail müharibəsi davam edərkən, ABŞ dövlət katibi E.Blinkenin iki dəfə Bəhreynə səfər etməsi Vaşinqtonun Manama ilə diplomatik əlaqlələrə önəm verdiyini ifadə edir. Bəhreynə gəlincə isə, ölkə ABŞ-ni təhlükəsizlik zəmanəti olaraq görür.

2. Bəhreyn Körfəzdə həm İran, həm də İranın proksi qüvvələri tərəfindən ən çox təhlükəni dərk edən ölkələrdən biridir. Əhalisinin əhəmiyyətli bir hissəsinin şiə olduğu Bəhreyni İranın dəstəklədiyi şiə husilərin Yəmənə nəzarət etməsi narahat edir. Əslində, Əbdülhadi Əl-Həvaca kimi şiə fəallar 2011-ci ildə etiraz prosesləri zamanı Bəhreyn hakimiyyətinə birbaşa təhlükə törətmiş və sonradan həbs edilmişdilər. Bununla yanaşı, 2021-ci ildə Bəhreyn İrana bağlı terror qruplarının hökumətə qarşı çevriliş planlaşdırdığını bəyan etmişdir. Bu səbəbdən Manama administrasiyası geosiyasi təhlükə kimi qəbul etdiyi İrana qarşı ABŞ-nin tərəfində mövqe tutmağa çalışır.

3. Üçüncü səbəb kimi, bu prosesə 2020-ci ildə Bəhreynin İsraillə əlaqələrinin normallaşması və Təl-Əvivlə diplomatik əlaqələr qurmasının təsir etdiyini söyləmək olar.

**Qətər**. Qətərin mövqeyinə gəlincə, ölkənin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Əl-Tani Qırmızı dənizdə münaqişənin yeganə həllinin **"iki dövlətli həll"** yolu olduğunu açıqladı. Ötən ilin noyabrında Qətər İsrail və HƏMAS arasında məhbus mübadiləsi ilə bağlı müzakirələrdə Misirlə birgə mühüm rol oynamışdır. Bu müzakirələr nəticəsində dörd gün davam edən "düşmənçiliyin müvəqqəti olaraq ləğv edilməsi" zamanı əlli əsirin azad edilməsi barədə razılaşma əldə olunmuşdur.

**Sudan**. Sudan kəşfiyyatının yüksək rütbəli rəsmisi Əhməd Həsən Məhəmməd ölkəsinin İranın Qırmızı dəniz sahilində dəniz bazası yaratmaq tələbini rədd etdiyini bildirdi. O: "**Tehran bazanın tikintisinə icazə müqabilində Sudana qabaqcıl silahlar, o cümlədən helikopterləri daşıyan döyüş gəmisi təklif edib. İranlılar bu bazadan kəşfiyyat məlumatları toplamaq üçün istifadə etmək istədiklərini bildiriblər. Orada hərbi gəmiləri də yerləşdirmək istəyirdilər. Lakin Xartum İranın təklifini rədd etdi**" – deyə, bildirib. [14]

**BƏƏ, Oman, Küveyt.** Yəmənin şərq qonşusu Oman Səudiyyə Ərəbistanı ilə eyni mövqedən çıxış etdi. Ölkənin  xarici işlər naziri Bədr Əl-Buseydi ABŞ və Böyük Britaniyanın hücumlarının regionda təhlükəli atmosferə şərait yaratdığını qeyd etdi. ABŞ və İngiltərəyə istinad edərək dost ölkələrin Yəmənə qarşı hava hücumlarını pisləyən Oman Yəməndəki sülh danışıqlarında fəal iştirakçı kimi tanınır. Oman kimi Birləşmiş Ərəb Əmirlikləri və Küveyt də Bab əl-Məndəb və Qırmızı dənizdə artan gərginlikdən narahat olduqlarını bildirdilər.

**İran.** ABŞ administrasiyası yaydığı bəyanatda Husilərin Qırmızı dənizdə gəmiləri hədəf almalarına İranın icazə verdiyini bildirdi. Belə ki, Prezident Cozef Bayden Tehrana "özəl

[14] وول ستريت جورنال: إيران حاولت إقناع السودان بإقامة قاعدة بحرية | أخبار سياسة | الجزيرة نت (aljazeera.net)

mesaj" göndərərək, onu bu fəaliyyətini dayandırmağa çağırdı. Öz növbəsində İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahiyan Ağ Evdən aldığı mesaja cavab olaraq, Husilərin Qırmızı dənizdəki hücumlarının Qəzza müharibəsi bitənə qədər davam edəcəyini vurğuladı. O, bu açıqlamasını Tehranda hindistanlı həmkarı Subrahmanyan Jaishankar ilə təşkil etdiyi birgə mətbuat konfransında bildirdi. O, ABŞ və Böyük Britaniyaya Yəmənə qarşı müharibəni dərhal dayandırmaq barədə xəbərdarlıq etdi.[15]

Onu da qeyd edək ki, Hindistan xarici işlər nazirinin İran səfəri Qırmızı dənizdə İsraildən Hindistana yük daşıyan Yapon şirkətinə aid gəminin hədəf alınmasından üç həftə sonraya təsadüf etdi. ABŞ bu dronun İrandan atıldığını bildirdi, Tehran bu iddianı rədd etdi. Cavabında isə Hindistan Qırmızı dənizə hərbi gəmilərini göndərdi. Hindistanın xarici işlər naziri Qırmızı dənizdəki hücumlarla bağlı narahatlığını ifadə edərkən: "Bu hücumlar narahatedicidir və araşdırılmalıdır" – deyə, qeyd etdi.

Husilər pilotsuz uçuş aparatları, ballistik və qanadlı raketlərlə yaxşı silahlanmış qruplaşma hesab edilirlər. Bu, onların fəaliyyətlərinin arxasında güclü himayədarın olduğunu göstərir. Qərbdə hesab edirlər ki, husilər istər silah, istərsə də təlim cəhətdən İran tərəfindən dəstəklənirlər. İran isə husilərə silah tədarükünü inkar edir və onları yalnız siyasi baxımdan dəstəklədiyini bildirir. Lakin 2014-cü ildə İran rəsmilərinin özləri Husiləri silahlandırdıqlarını etiraf etmişdilər. Hər halda, Yəmən Husilərinin fəaliyyətini İran-ABŞ, İran-İsrail qarşıdurmasının elementi hesab etmək olar.

## Nəticə

Husilərin ötən ilin oktyabr ayında Qırmızı dənizdə başlatdıqları və beş aydır davam edən hücumları qlobal dəniz ticarətinə, regional sabitliyə, eləcə də gəmi yollarının təhlükəsizliyinə ciddi təhdidlər yaratdı. Bu, bütün dünyada dəniz daşımacılığı qiymətlərinin ciddi artımı ilə nəticələndi. Qeyd edək ki, husilərin Qırmızı dəniz hücumları gəmiçilik üçün COVİD-19 pandemiyasından daha ağır nəticələrə səbəb olub.

1. **Qlobal dəniz ticarətinə dəyən zərərlər:** İntensiv hal alan hücumlar nəticəsində dünyanın ən böyük gəmiçilik şirkətləri Qırmızı dənizdən istifadəni dayandıraraq, bu marşrut xəttini Cənubi Afrika ətrafında daha uzun marşrutdan istifadə ilə əvəzlədilər. Belə ki, **Danimarkanın "AP Moller-Maersk", Fransanın "CMA CGM Group", Almaniyanın "Hapag-Lloyd", Çinin "Evergreen", İsveçin "Stena Bulk", Sinqapurun "Hafnia" və Danimarkanın "Torm", Böyük Britaniyanın "BP" və "Shell Global" şirkətləri Qırmızı dənizdə daşımacılığı dayandırdılar.**[16] Nəticədə qlobal ticarətin təxminən 15 faizinin keçdiyi və

[15] İran, ABD ve İngiltere'yi Husilere saldırmaya karşı uyardı (aawsat.com)
[16] https://www.theguardian.com/business/2023/dec/18/bp-halts-oil-and-gas-shipments-red-sea-shipping#:~:text=BP%20becomes%20the%20first%20oil,Suez%20canal%20at%20the%20tip.

milyardlarla dollarlıq malların 30 faizinin daşındığı Qırmızı dənizdə konteynerlərin sayında 70 faiz azalma müşahidə edildi. Bu, qlobal ticarətin təxminən 1,5 faiz azalması demək idi. Bu vəziyyət 2024-cü ilin yanvar ayında ABŞ və müttəfiqlərinin Yəməndə hərbi əməliyyatlara başlaması ilə daha kəskin hal aldı. Belə ki, Qırmızı dəniz gəmilərinin Süveyş kanalı vasitəsilə tranzit həcminin keçən ilin yanvar ayı ilə müqayisədə 30% azaldığı müşahidə edildi.[17]

2. **Qlobal iqtisadiyyata təsiri:** Neftin qiyməti 2024-cü ildə ilk dəfə olaraq yanvarın 12-də 80 dollar/barel həddini keçdi, lakin 78,29 dollar/barellə başa çatdı. ABŞ-nin Qərbi Texas neftinin birja əqdi (fyuçers) isə 72,68 dollar səviyyəsində qərarlaşdı. Lakin yanvarın 17-si çərşənbə günü Brent markalı neftin birja əqdi 1,6% ucuzlaşaraq bir barel üçün 77,03 dollara, ABŞ-nin Qərbi Texas neftinin (WTI) xam fyuçersləri isə 1,9% ucuzlaşaraq 71,05 dollar oldu. Daha uzun daşıma marşrutlarına və daha yüksək xərclərə baxmayaraq, neft tədarükü indiyədək ciddi təhlükə altında olmadı və Qırmızı dəniz böhranının neft bazarlarına təsiri əksər hallarda minimum səviyyədə saxlana bildi.
3. **Regional sabitliyə təhdid:** Yanvarın 12-də Husilərin Qırmızı dəniz əməliyyatlarına cavab olaraq ABŞ və Böyük Britaniya paytaxt Səna və ölkənin əsas hava limanını atəşə tutdu. Husilərin idarəçiliyi altında olan paytaxt Sənaya hücumda məqsəd husilərdən intiqam almaq olsa da, dinc əhali də ziyan çəkdi. Qeyd edək ki, Ərəbistan yarımadasının Qırmızı dənizlə həmsərhəd ucunda yerləşən Yəmən ərəb dünyasının ən kasıb ölkəsidir. Birləşmiş Millətlər Təşkilatı bildirir ki, müharibə və qeyri-bərabər idarəçilik 2023-cü ilə qədər 24 milyon yəmənlini aclıq və xəstəlik riski ilə üz-üzə qoymuş və hazırda 14 milyona yaxın insanın təcili yardıma ehtiyacı var. Həmçinin ağır humanitar, siyasi və iqtisadi böhran vəziyyətində olan yəmənlilərin təxminən üçdə ikisinin husilərin nəzarətində olan ərazidə yaşamaları onların həyat şəraitlərini ağırlaşdıran digər amildir.

*Hadisələrin gedişatı Qırmızı dəniz böhranının yaxın gələcəkdə səngiməyəcəyini söyləməyə əsas verir. Buna əsas səbəblər kimi ABŞ və Böyük Britaniyanın yaratdığı "Qırmızı dəniz koalisiyası"na qonşu ərəb ölkələrinin qoşulmaması və HƏMAS-İsrail müharibəsinin xroniki hal almasını göstərə bilərik. Ərəb ölkələrindən yalnız Bəhreynin qoşulduğu koalisiyaya regionun aparıcı ölkələrinin qoşulmaması və onların "balans siyasəti" hücumların qarşısının alınmasına əngəl törədən amillərdən biridir. Belə olduğu halda, husilərin Qırmızı dəniz hücumlarının HƏMAS-İsrail müharibəsinin davam etdiyi müddətcə dayanmayacağını ehtimal etmək olar.*

**Müəllif: Lalə Xəlilzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

[17] https://www.offshore-energy.biz/shell-joins-bp-and-numerous-shipping-giants-in-putting-all-red-sea-shipments-on-ice-as-vessel-attacks-escalate/